

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 46-47 (7508-7509) 1933-cü ildən nəşr olunur Cümə axşamı, 18 oktyabr 2018-ci il. news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

**15 oktyabr**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lerik rayonunda səfərdə olub. Ölkə Prezidenti Lerik rayonuna səfəri çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik Lerik şəhər 2 saylı körpələr evinin, Bayraq muzeyinin, Lerik rayonunun PiranHamarat-Vijaker avtomobil yolunun açılışlarında, gücü 16,5 MVt olan elektrik stansiyasının istismara verilməsi, "Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimlərdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Astara rayonunda səfərdə olub. Ölkə başçısı Astarada dənizkənarı park bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində yaradılan şəraitlə tanış olub. "Astara şəhərinin içməli su təchizatı sistemləri" layihəsinin başa çatması münasibtəilə keçirilən mərasimdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonunda səfərdə olublar. Ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonuna səfərləri çərçivəsində Hirkan-Daştatük-Biləsər avtomobil yolunun, "Azərxalça" açıq səhmdar Cəmiyyətinin Lənkəran Filialının, Lənkəran Olimpiya İdman Kompleksinin açılışlarında iştirak ediblər.

**11 oktyabr**

Azərbaycan Respublikasının Prezidenti Quba rayonunda səfərdə olub. Ölkə Prezidenti Quba rayonuna səfəri çərçivəsində İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqəva-Aspərəsti-Çayqışlaq avtomobil yolunun, Quba Rayon Mərkəzi Xəstəxanasının, "Günəş" körpələr evi-uşaq bağçasının, "ABAD Fastory" İstehsalat Kompleksinin, "Qubaekoaqrar" MMC-nin kənd təsərrüfatı mallarının istehsalı zavodunun açılışlarında iştirak edib, Bakı-Quba-Rusiya Federasiyası avtomobil yolunda aparılan tikinti işləri ilə, Qubadakı Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitunun təmirdən sonrakı fəaliyyəti ilə, Qubada Gənclər Parkında yaradılan şəraitlə tanış olub.

# Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır



***Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

Sonra vergilər naziri Mikayıl Cabbarov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə və "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov çıxış etdilər.

Azərbaycan Prezidenti iclasda yekun nitqi söyləyib.

# 15 oktyabr 2003-cü il tariximizin ən əlamətdar günlərindən biridir

2003-cü ilin oktyabr ayının əvvəllərində ümumilli lider Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək 15 oktyabrda növbəti ölkə Prezidenti seçkilərində "özü qədər inandığı" İlham Əlyevə səs verməyə çağırdı. Qədirbilən xalqımız ulu öndərin çağırışına səs verərərk, həm də İlham Əliyevə böyük inam və etibar nümayiş etdirərək 2003-cü ilin oktyabr ayının 15-də onu böyük səs üstünlüyü ilə ölkə Prezidenti seçdi.

Heydər Əliyev ideyalarından bəhrələnən cənab İlham Əliyev ötən müddətdə ulu öndərin çoxşaxəli islahatlar yolunu böyük mükkəmməllik və bacarıqla davam etdirmişdir. Onun apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizdə keçid dövrü başa çatmış, güclü inkişaf yolu başlanmışdır.

İslahatlar ictimai həyatın bütün sahələrində ciddi nailiyyətlərə zəmin yaratmışdır.

Ulu öndər Heydər Əliyev 1993-2003-cü illərdə dövlət müstəqilliyini daxili və xarici təhdidlərdən qoruyub saxlamış, müstəqilliyimizi "daimi, dönməz, sarsılmaz" məcraya salmışdısa, Prezident İlham Əliyev bu təməl üzərində ölkəmizin yeni inkişaf hədəflərini müəyyən etmiş və bütün sahələrdə sürətli inkişafa nail olunmasını təmin etmişdir.

Ölkə başçısı Azərbaycanın iqtisadi, sosial və siyasi sahədə əldə etdiyi nailiyyətləri dəyərləndirərək demişdir: "Azərbaycanın bu günkü reallıqları bir daha müstəqilliyimizin üstünlüklərini göstərir. Tarixdə Azərbaycan heç vaxt bu qədər güclü olmamışdır. Elə etməliyik ki, bundan sonra Azərbaycan daim inkişaf yolu ilə getsin".

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün respublikada olan daxili sabitlik, əmin-amanlıq, milli barışıq sürətli iqtisadi inkişafın başlıca təminatlarından biridir.

Ölkəmizdə neft və qaz hasilatı, onun dünya bazarlarına çıxarılması sahəsində həyata keçirilən nəhəng beynəlxalq layihələr dünyanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu artırır və ölkəmizi Avropa üçün strateji əhəmiyyətli dövlətə çevirir.

Hazırda Azərbaycanın iştirakı olmadan regionda heç bir beynəlxalq əhəmiyyətli layihə həyat keçirilə bilmir.

Dünya birliyi mühüm beynəlxalq tədbirləri keçirmək üçün Qafqaz regionunda Azərbaycana üstünlük verir.

Bu gün İlham Əliyev başda olmaqla Azərbaycan hökümətinin həyata keçirdiyi bütün layihələr ölkə vətəndaşlarına, onların rifah halının yüksəldilməsinə yönəlib.

**"Qəbələ"**